*İdman sağlamlıq və gözəllikdir. Bəlkə, buna görə, "Sağlam bədəndə sağlam ruh olar" deyimi heç də təsadüfi deyil. Bədən tərbiyəsi və idman ümumi tərbiyənin bir hissəsi, cəmiyyətin ümumi mədəniyyətinin tərkib hissəsi, insanların sağlamlığını möhkəmlətməyə, fiziki bacarığını inkişaf etdirməyə yönəldilmiş ictimai fəaliyyət sahəsidir. İdman təkcə idmançılar arasında deyil, həm də xalqlar arasında dostluq münasibətlərinin yaranması və möhkəmlənməsində də mühüm rol oynayır. Sovetlər dönəmində Azərbaycanın müttəfiq respublikalar ilə idman əlaqələri xeyli genişlənmiş, idmanın bütün sahələrində ustalığın nümayişi və təcrübənin bölüşdürülməsi üçün əlverişli imkanlar, doğma, qardaşlıq münasibətləri olmuşdur.*

# *Azərbaycanda idmanın inkişaf tarixi*

## *XIII yazı*



*(əvvəli qəzetimizin ötən saylarında)*

1983-cü ilin ilin aprelində Düşənbədə Tacikistan SSR Nazirlər Sovetinin mükafatları uğrunda tennisçilərin ümumittifaq turniri keçirilmişdi. Bu turnir eyni zamanda SSRİ xalqlarının səkkizinci yay spartakiadası ərəfəsində qüvvələrə baxış xarakteri daşıyırdı.

Turnirə qoşulan Bakı tennisçisi R.Əhmədov uğurla çıxış edərək fərdi yarışların qalibi olmuşdu. 19 yaşlı Valeriya Spiridonova isə qoşa və qarışıq yarışların yarımfinalına qədər mübarizə aparmışdı. Aprelin ortalarında Frunzedə (Bişkek) Sovet İttifaqı Qəhrəmanı İ.Panfilovun xatirəsinə həsr olunmuş klassik güləş üzrə ümumittifaq turniri təşkil edilmişdi. Yarışlarda 12 müttəfiq respublikanın, Moskva və Leninqrad şəhərlərinin ən güclü pəhləvanları mübarizə aparmışdılar. Pəhləvanlarımızdan M.Xıdırov və M.Əliyev öz çəki dərəcələrində birinci, Q.Qazıyev ikinci, A.Əliyev və Ş.Əlismanov üçüncü yeri tutmuşdular. Azərbaycan idmançıları Qazaxıstan və Mərkəzi Asiya respublikalarında keçirilən idman yarışları ilə bərabər, Ümumittifaq səviyyəli yarışlarda da qarşılaşırdı. Bu isə daha isti və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə kömək edirdi.

SSRİ xalqlarının VIII Moskva Yay spartakiadası 1983-cü il may ayının 11-dən avqustun 5-dək keçirilmişdi. Bu spartakiada Böyük Vətən müharibəsində SSRİ-nin alman faşizmi üzərində tarixi qələbəsinin 38-ci ildönümünə həsr olunmuşdu. Spartakiadaya 234 min bədən tərbiyəsi komandası qoşulmuş, 38 milyon nəfər idmançı yarışlarda müxtəlif kateqoriyalar üzrə normativləri yerinə yetirmişdi. Spartakiadada 32 idman növü üzrə 11 min nəfərədək ittifaq və 56 ölkəni təmsil edən 700 nəfər xarici ölkə idmançısı mübarizə aparmışdır. Yarışların əksəriyyəti Moskvanın idman sarayları və komplekslərində keçirilsə də, əlverişli imkanlarına görə həndbol (Vilnus və Kaunas), yelkənli qayıqsürmə (Tallin), tennis (Daşkənd), stolüstü tennis (Lvov) və futbol (İvanovo, Ryazan, Tula və Moskva) üzrə yarışlar kənar şəhərlərdə təşkil olunmuşdu.

Azərbaycan idmançıları da VIII Yay spartakiadasına ciddi hazırlaşmışdılar. "Dinamo " idman salonunda keçirilən qadınlar arasında basketbol yarışlarında təmsilçilərimiz "Q" qrupunda Ukrayna, Leninqrad, Türkmənistan və Qırğızıstan kollektivləri ilə birlikdə mübarizəyə qoşulmuşdular. Basketbolçularımız ikinci final qrupunda 9-12-ci yerlər uğrunda mübarizə aparmaq hüququ qazanmaq üçün Qırğızıstan və Türkmənistan komandalarından üstün olmalı idilər. Yığma komandamız Türkmənistan basketbolçularına 81:69 hesabı ilə qalib gəlsələr də, Qırğızıstan basketbolçularına 68 : 87 hesabı ilə məğlub olmuşdular.

Moskvada keçirilən VIII Yay Spartakiadası çərçivəsində sərbəst güləş yarışları da maraqla gözlənilirdi. Qələbə uğrunda Azərbaycan güləşçiləri ilə yanaşı, Özbəkistan, Tacikistan, Türkmənistan, Litva, Latviya, Çeçen-İnquş MSSR, Leninqrad və Kalininqrad pəhləvanları mübarizə aparmışdılar. Bu yarışda Azərbaycanı Maarif Nazirliyinin yığma komandası təmsil edirdi. Pəhləvanlarımızdan Sərvər Fərmanov, Qurban Qasımov, Elxan Hüseynov və Arif Babayev bütün rəqiblərinə öz çəki dərəcələrində qalib gələrək çempion olmuşdular. Elşən Quliyev yalnız finalda qələbəni əldən vermişdi.

Spartakadanın tennis yarışları may ayının 20-dən iyunun 1-dək Daşkənddə keçirilmişdi. Yığma komandamız Moskva, Özbəkistan, Türkmənistan və Litva komandaları ilə eyni qrupda mübarizə aparmışdı. Komandamız finala qədər irəliləmişdi.

Qılıncoynatma yarışlarında rapiraçımız Boris Koretski də uğurlu çıxışı ilə yadda qalmışdı. O, dördüncü yeri tutmaqla respublikamızın nümayəndə heyətinə ilk məqbul xalları qazandırmışdı.

Atletika üzrə üzrə yarışlarda 1400 nəfər idmançı arasında mübarizə aparan təmsilçilərimiz 131 xal toplayaraq ümumi hesabda 14-cü yeri tutmuşdular.

Azərbaycan avarçəkənlərinin çıxışları daha uğurlu olmuşdur. Bir nəfərlik qayıqların yarışında Moskva Olimpiadasının gümüş mükafatçısı V.Yakuşa finiş xəttini hamıdan tez keçərək qızıl medala yiyələnmişdi. Avarçəkənlərimiz dördnəfərlik, qoşa avarlı və səkkiz nəfərlik qayıqların yarışında ikinci yeri tutmuşdular.

Məlumat üçün bildirək ki, SSRİ xalqlarının VIII Yay Spartakiadasının finalında 8685 idmançı iştirak etmiş, 17 dünya rekordu və 22 SSRİ rekordu qeydə alınmışdı. Komanda yarışlarında RSFSR komandası qalib gələrək birinci, Ukrayna SSR komandası ikinci və Moskvanın yığma komandası üçüncü yeri tutmuşdular. BOK-un prezidenti Xuan Antonio Samaranç spartakiadada fəxri qonaq qismində iştirak etmiş və yarışların gözəl, yüksək səviyyədə təşkil edildiyini söyləmişdi.

Yekun nəticələrə nəzər salsaq, VIII Yay Spartakiadasında Azərbaycan idmançıları 1740 xalla 12-ci yeri tutmuşdular. İdmançılarımız spartakiadada daha çox avarçəkmə, sərbəst və klassik güləş, otüstü hokkey (qadınlar), cüdo və qılıncoynatma yarışlarında fərqlənmişdilər. Ancaq reqlamentə görə spartakiadada yerlər təkcə final yarışlarında əldə olunmuş xallara görə müəyyənləşdirilmirdi. Son nəticədə idmançıların məktəblilərin XVI Ümumittifaq spartakiadasında və gənclərin III Ümumittifaq oyunlarında qazandıqları xallar da nəzərə alınırdı. Spartakiadada ümumilikdə, 246 dəst medal oynanılmışdır. Qızıl medallar 87 şəhərin, gümüş və bürünc medallar 167 şəhərin idmançılarına nəsib olmuşdur. 1983-cü ilin iyun ayında Bakıda qadınlar arasında otüstü hokkey üzrə ölkə çempionatı keçirilmişdi. Bakının "Rabitəçi" komandası Daşkənd vilayətinin "Politoddel" kollektivi ilə ilk görüşdə 1:0 hesabı ilə qalib gəlmişdi. Cavab qarşılaşmasında görüşdə hesab dəyişməmişdi. "Rabitəçi"nin Əndican hokkeyçilərinin ölkə birinciliyi uğrunda görüşləri çox gərgin şəraitdə keçmişdi. Tərəflərin birinci görüşündə komandamız qələbə qazanmışdı - 1:0. Cavab görüşündə də komandamız eyni hesabla qalib gəlmişdilər.

Sentyabrda Azərbaycan Politexnik İnstitutunun idman sarayında gənclər arasında qılıncoynamta yarışı keçirilmişdi. On gün davam edən yarışda SSRİ-nin digər şəhərlərindən gələn idmançılar qüvvələrini sınamışdılar. Yekunda Alma-Ata idmançısı İ.Yuqat birinci, Bakı qılıncoynadanlarından İ.Əliyeva ikinci və K.Mamliyeva üçüncü yeri tutmuşdular. Ümumi hesabda Bakı təmsilçiləri birinci yeri tutmuşdular. Həmin ilin son ayında Daşkənddə SSRİ kuboku uğrunda qılıncoynadanların yarışları da təşkil olunmuşdu. Yarış iştirakçıları arasında Olimpiya, dünya və Avropa çempionları, eləcə də beynəlxalq turnirlərin qalibləri mübarizə aparmışdılar. Azərbaycan təmsilçisi Boris Koretski yarışın bürünc medalına yiyələnmişdi. 1984-cü il Azərbaycan idmançılarının Qazaxıstan və Mərkəzi Asiya respublikalarının idmançıları ilə əlaqələri baxımından əhəmiyyətli, zəngin və yadda qalan il olmuşdu. Həmin ilin mart ayında Frunzedə SSRİ birinciliyi uğrunda gənc pəhləvanlar arasında yarışlar keçirilmişdi. Ölkənin müxtəlif şəhərlərindən gəlmiş 250 nəfər güləşçi yarışlarda qalib adı uğrunda yarışmışdılar.



"Dinamo" idman cəmiyyətinin Azərbaycan Şurasının yetirməsi Rafael Məmmədov (56 kq) ikinci yeri tutmuşdu. "Lokomotiv" cəmiyyətinin yetirməsi, idman ustası Tapdıq İsmayılov (48 kq) isə bürünc medalla kifayətlənmişdi.

"Dinamo" cəmiyyətinin daha iki üzvü - Nadir Hacıyev və Güləli Nuriyev yarışı beşinci yerdə tamamlanmışdı. Aprelin 1-dən 3-dək Daşkənd və Əndican şəhərlərində qadınlar arasında otüstü hokkey üzrə növbəti çempionat keçirilmişdi. Güclülər dəstəsində əvvəlki illərdən fərqli olaraq bu dəfə 10 deyil, 12 komanda mübarizə aparmışdı. Yarış qaydalarında dəyişikliyə əsasən iştirakçılar əvvəllər bir-biri ilə öz doğma şəhərlərində iki və səfərdə iki oyun keçirirdilərsə, indi artıq tur sistemi tətbiq olunurdu. Komandalar iki yarımqrupa bölünür və oyunlar dövrə sistemi üzrə keçirilirdi. İkinci turda çempionat iştirakçılarının hamısı Moskvaya toplaşmalı və birinci yarımqrupun komandaları ikinci yarımqrupda çıxış edən kollektivlərlə qarşılaşmalı idilər. Bu görüşlər başa çatdıqdan sonra yarış cədvəlində ilk səkkiz yeri tutanlar çempionatın medalları uğrunda mübarizəni davam etdirəcək, axırıncı dörd yeri tutanlar isə birinci dəstənin ən güclü dörd kollektivinə qoşularaq, güclülər dəstəsində qalmaq uğrunda yarışmalı idilər.



Bu çempionatda Azərbaycanı "Rabitəçi" komandası güclülər dəstəsində, "Turac" isə birinci dəstədə təmsil edirdi. "Rabitəçi"nin ilk səkkiz kollektiv sırasında yer alması, medallar uğrunda mübarizəni davam etdirməsi, "Turac"ın isə güclülər dəstəsinə yüksəlməsi barədə tələb irəli sürülmüşdü. Güclülər dəstəsinin komandaları ilk mərhələnin oyunlarını Daşkənd və Əndican şəhərlərində keçirmişdilər. Əndicandakı yarımqrupların iştirakçıları arasında yerli "Andicanka", Alma-Atanın "Svyazist", Suminin "Burevestnik", Şaulyayın "Tauras", Moskvanın "Krılya Sovetov" və "Burevestnik" komandaları yer almışdılar. "Rabitəçi" komandası Daşkənd vilayətində yerli "Politoddel", Borispolun "Kolos", Moskva vilayətinin "Spartak", İrəvanın "Mayak" komandaları və Qorki şəhər Tramvay-Trolleybus İdarəsinin hokkeyçiləri ilə birlikdə yarışırdı. İlk görüşdə təmsilçimiz "Politoddel" kolxozunun stadionunda "Mayak"la qarşılaşmışdı. Gərgin mübarizə şəraitində keçirilən görüşdə hesab dəyişməmişdi.

"Turac" komandası isə Kazan şəhərində ilk görüşü Poltavanın "Olimpiya" komandası ilə keçirmişdi. Həmin görüşdə tərəflər hərəyə bir dəfə fərqlənmişdilər. Aprel ayının əvvəlində Qazaxıstanın "Urojay" cəmiyyəti mərkəzi şurasının birinciliyi uğrunda Aktyubinsk şəhərində keçirilən şahmat yarışları yekun vurulmuşdu. Yarışlarda 13 güclü şahmatçı (1 nəfər beynəlxalq usta, 4 nəfər SSRİ idman ustası, 8 nəfər ustalığa namizəd) iştirak etmişdi. Ölkəmizi Yarışlarda Azərbaycanın idman şərəfini gənclər arasında respublika çempionu, 16 yaşlı ustalığa namizəd Sərxan Quliyev qorumuşdu. Aprel ayının ortalarında SSRİ-nin beş şəhərində voleybol üzrə ölkə kuboku uğrunda qadınların dörddə bir final yarışlarına start verilmişdi. Yarışların keçirildiyi şəhərlər sırasına daxil olan Bakıda Moskvanın MOİK, Daşkəndin "Avtomobilist", Donetskin "Spartak" komandaları ilə yanaşı, Azərbaycanın məişət kondisioneri zavodunun voleybolçuları da çıxış edirdilər. Respublika Həmkarlar İttifaqları Şurasının idman sarayında keçirilən yarışlarda Bakı voleybolçuları ilk görüşdə SSRİ Kubokunun dəfələrlə sahibi olmuş Moskvanın MOİK komandası ilə qarşılaşmışdı. İlk iki hissədə təşəbbüsü əldən verən komandamız hesabı bərabərləşdirsə də, beşinci hissədə bu uğurun ardını gətirə bilmişdilər - 7:15.

Aprelində Düşənbə şəhərində Tacikistan birinciliyi uğrunda tennis yarışları təşkil olunmuşdu. Bir həftə davam edən yarışda 100-ə yaxın yarışmışdı.

Azərbaycanı təmsil edən Dövlət Bədən Tərbiyəsi İnstitutunun üçüncü kurs tələbəsi Valeriya Spiridonovanın çıxışları uğurlu olmuşdu. O, düşənbəli idmançı V.Vorobilovla birlikdə qarışıq yarışların qalibi olmuş və fərdi yarışlarda isə üçüncü yerə layiq görülmüşdü.

*(ardı var)*

***Əzizağa Ələkbərli,***
***Azərbaycan MEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent***